# Respublikamızda arıçılıq təsərrüfatlarının inkişaf istiqamətləri



Müasir dövrdə ölkə iqtisadiyyatının qarşısında duran əsas vəzifə sahələr arasında tarazlığı təmin etmək, əhalinin ərzaqla təminatını daim yaxşılaşdırmaq, sənaye sahələrinin kənd təsərrüfatı xammallarına olan tələbatının ödənilməsini və ixrac potensialının artırılaraq, inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırılmasını təmin etməkdir.

**Ümumilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidi ilə yenidən rəhbərliyə gələrək, başlatdığı demokratik dövlət quruculuğu və iqtisadi inkişaf siyasəti hal-hazırda respublikamızın Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.**

Ölkə prezidentinin rəhbərliyi ilə qəbul edilən Strateji Yol Xəritələri, İqtisadi inkişaf Konsepsiyası, xeyli sayda dövlət proqramları və digər strateji xarakterli sənədlər, onların uğurla həyata keçirilməsi ölkəmizin hərtərəfli inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir.

Hazırda Azərbaycanda qeyri-neft sektorunun əsasını təşkil edən aqrar sahənin inkişafının zəruri olduğu özünü daha çox büruzə verməkdədir. Dünya bazarında neftin ucuzlaşması və eyni zamanda manatın devalvasiyası nəticəsində idxal mallarının bahalaşması qeyri-neft sektorunu iqtisadiyyatın aparıcı qüvvəsinə çevirmək zərurəti yaradıb.

Bu gün qeyri-neft sektorunun aparıcı qüvvəsi sayılan aqrar sahənin yeni hədəflərinin əsası qoyulur, sosial və istehsal infrastrukturunun inkişafı, regional proqramların yerinə yetirilməsi, kənd ərazilərinin inkişafı, kənddə həyat tərzinin müasirləşdirilməsi, kənd iqtisadiyyatının inkişafı və alternativ iş mühitinin formalaşdırılması, kənd təsərrüfatının və kəndin çox funksiyalılığının gündəmə gətirilməsi ilə ölkənin daha da qüdrətlənməsinə şərait yaradılır.

Respublikamızda aqrar sektorda biznesin formalaşdığı müasir dövrdə istehsal sahələrinin müasir texnika və texnologiyalarla təchizatı, səmərəliliyin yüksəldilməsi, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir.

İqtisadiyyatın qeyri-neft sektorunun inkişafını sürətləndirmək, mövcud olan əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etmək əsas vəzifələrdəndir. Qeyri-neft sektorunun aparıcı sahələrindən biri olan aqrar sektorda infrastrukturun yenilənməsi, müasir tipli yeni müəssisələrin yaradılması əhalinin məşğulluğunun artırılmasına, yoxsulluğun səviyyəsinin azaldılmasına, yeni iş yerlərinin açılmasina şərait yarada bilər. Qeyd edilən tədbirlərin həyata keçirilməsi məqsədilə mühüm dövlət proqramları hazırlanaraq qəbul edilmişdir.

**Kənd təsərrüfatında aparılan islahatların davamı olaraq ölkəmizdə 2016-cı il 06 dekabr tarixli fərmanla "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji yol Xəritəsi" təsdiq edilib. Hazırlanmış bu Yol Xəritəsində kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, ərzaq təhlükəsizliyi sahəsində koordinasiya, qiymətləndirilmənin aparılması proqramı, yeni və daha müasir layihələrin hazırlanması və həyata keçirilməsi, fövqəladə hallarda həyata keçiriləcək tədbirlərin müəyyən edilməsi və s. işlərin səmərəliliyinin təmin edilməsi məsələləri öz əksini tapmışdır.**

Respublikamız müstəqillik əldə etdikdən sonra inzibati amirlik və sovet sistemindən sosial yönümlü sivil bazar iqtisadiyyatına keçid etməklə inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Artıq ölkəmiz keçid dövrünü, əsasən başa vurmuş dövlət olaraq, mili maraqlara cavab verən, ölkənin iqtisadi təhlükəsizliyini təmin edən prinsiplərə uyğun, keyfiyyətli məhsul istehsalı və xaricdən asılılığı azaltmaqla, malik olduğu insan kapitalı və zəngin təbii resurslardan səmərəli istifadə etməklə inkişaf etmiş ölkəyə çevrilmişdir.

**Sosial-iqtisadi inkişaf nəticəsində Azərbaycanın əldə etdiyi uğurlu nəticələri təhlil edən akademik Z.Ə.Səmədzadə "Çin qlobal dünya iqtisadiyyatında" adlı fundamental əsərində ölkəmizin XXI əsrə bazar münasibətləri əsasında inkişaf edən müstəqil ölkə olaraq daxil olduğunu qeyd edir. Beynəlxalq əhəmiyyətli enerji layihələrinin əsas iştirakçısı və təşəbbüsçüsü kimi çıxış edən Azərbaycanın iqtisadi qüdrəti günbəgün artır, bu isə öz növbəsində maliyyə imkanlarının genişlənməsinə zəmin yaradır.**

Müasir dövrdə ölkənin iqtisadiyyatında neft sektoru aparıcı rol oynasa da, aqrar sahə çox böyük həyati əhəmiyyətə malik olan sahə kimi qalmaqdadır. Bu, onunla əlaqədardır ki, aqrar sahə ölkədə əhalinin ərzaq məhsullarına, bir sıra sənaye sahələrinin xammala olan tələbatının ödənilməsində, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında və deməli, cəmiyyətin sosial-iqtisadi həyatında əhəmiyyətli rol oynayır. Ona görə də hər bir ölkə, xüsusilə də inkişaf etməkdə və keçid iqtisadiyyatında olan ölkələr özlərinin təbii iqlim potensialına uyğun gələn və ərzaq təhlükəsizliyini təmin edə bilən aqrar sahəyə malik olmağa çalışır.

Ölkəmizdə aqrar setorun tərkib hissələrindən biri olan arıçılıq ənənəvi məşğuliyyət növlərindən biridir. Bunun bariz nümunəsi kifayət sayda yaşayış məntəqələrimizin və yerlərin arı və onun məhsullarının adı ilə məşhur olmasıdır. Keçmiş tariximizdən gələn bu adların əksər hissəsi bu gün də qalmaqdadır. Tarix boyu insanlar tərəfindən arıçılığın inkişaf etdirilməsinin bir sıra məqsədləri olmuşdur. İnsanlar arıçılığı inkişaf etdirməklə özlərini müalicəvi qida məhsulu və qiymətli pəhriz sayılan balla, xalq təsərrüfatını mumla, tibb sahəsini bu sahə üçün xüsusi əhəmiyyəti olan arı zəhəri, arı südü və s. ilə təmin etməyə çalışmışlar. Milli ərzaq təhlükəsizliyinin təmin edilməsi, o cümlədən arıçılıq məhsulları baxımından kənd təsərrüfatının davamlı inkişafına nail olunması həllini gözləyən problemlərdəndir.

Göstərilənlərlə əlaqəli olaraq mövcud potensialdan daha səmərəli istifadə olunmaqla və kənd təsərrüfatının mütərəqqi strukturunun üstünlüklərindən istifadə etməklə yeni müxtəlif formalı kənd təsərrüfatı müəssisələrinin təşkili və idarə edilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə təminatının daha da yaxşılaşdırılması yollarının və xüsusiyyətlərinin araşdırılması, təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi ölkəmizin aqrar elmi qarşısında duran ən mühüm vəzifələrən biridir.

Respublikamızda aparılan iqtisadi islahatlar dərinləşdikcə, aqrar sektorun bir çox sahələri öz üzərinə düşən tarixi-iqtisadi vəzifələrin həllində xeyli çətinliklərə məruz qalır, əsas funksiyalarını yerinə yetirə bilmirlər. Bu sahələrdən biri olan arıçılıq təsərrüfatları da son illərdə ölkəmizdə əlverişli torpaq-iqlim şəraitinin olmasına baxmayaraq, əhalinin əvəzsiz yeyinti məhsulu olan bala və digər arıçılıq məhsullarına olan tələbatını tam ödəmir. Odur ki, respublikamızda arıçılıq məhsullarının istehsalının təşkili və idarə edilməsinin iqtisadi idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinin tədqiqi obyektiv zərurətə çevrilmişdir.

Arıçılıq bal arılarının yetişdirilməsini, çoxaldılması, saxlanılmasını, onlardan entomofil kənd təsərrüfatı bitkilərinin tozlandırılmasında istifadə edilməsini, arıçılıq məhsullarının istehsalını və emalını əhatə edən kənd təsərrüfatı sahəsidir. Bu sahəni inkişaf etdirmək iqtisadi cəhətdən gəlirli olması ilə yanaşı, ətraf mühitin ekoloji durumunun yaxşılaşdırılmasında da mühüm rol oynayır.

Aparılan araşdırmalar göstərir ki, bu gün respublikamızda arıçılıq təsərrüfatlarının maddi bazası tamamilə köhnəlmiş, arıçılıqla məşğul olanların hətta ən xırda avadanlıqları və materialları çatışmır. Respublikamızda arıçılıq təsərrüfatlarına xidmət göstərən infrastrukturların yaradılması istiqamətində tədbirlər həyata keçirilsə də, hələ də çoxlu çatışmazlıqlar mövcuddur. Arıçılar istehsal etdikləri məhsulları satmaq üçün böyük çətinliklərlə qarşılaşırlar. Əhalinin keyfiyyətli Azərbaycan balına tələbatı olmasına baxmayaraq, balın alıcılara çatdırılması mexanizmi bu günün tələblərinə cavab vermir. **Bu baxımdan arıçılıq təsərrüfatlarının formalaşması və inkişaf etdirilməsi məsələlərinin elmi tədqiqi aktuallıq kəsb edir.**

Azərbaycanda arıçılığın tarixinə səyahət etməklə onun dərin köklərə və zəngin təcrübəyə malik olduğunun şahidi oluruq.

Azərbaycanda arıçılıq Sovet hakimiyyəti dövründə bəzi kolxoz və sovxozların tərkibində fəaliyyət göstərmiş, ilk olaraq xırda dağınıq arıçılıq təsərrüfatları yaradılmış, sonralar ixtisaslaşdırılmış iri arıçılıq təsərrüfatlarına çevrilmişdir. 1919-cu ildə "Arıçılığın mühafizəsi haqqında" dekret qəbul edilmişdir. Sənədə görə, arıçı kəndlilər əvvəllər tutulan "arı pulu" vergisindən azad edilirdilər.

XX əsrin 50-90-cı illərində Azərbaycanda arıçılıq dövlətə və arıçılıqla məşğul olanlara xeyli gəlir gətirən, inkişaf etmiş sahəyə çevrilmişdir. Rəsmi məlumatlara görə, o dövrdə Azərbaycanda 10 mindən çox kənd sakini arıçılıqla məşğul olmuşdur. Demək olar, bütün kolxozlarda arıçılıq təsərrüfatları, 10 ixtisaslaşdırılmış arıçılıq sovxozu, Lənkəranda ittifaq əhəmiyyətli arıyetişdirmə sovxozu fəaliyyət göstərmişdir.

Azərbaycan balı istər ölkəmizdə, istərsə də xaricdə yüksək qiymətləndirilir. Azərbaycanın misilsiz müalicəvi bal sortları olan dağ may balı, sitrus meyvələrindən və cənubdakı dağ çəmənlərindən toplanmış Lənkəran balı bütün dünyada layiqincə qiymətləndirilmiş və qəbul olunmuşdur.

**Ötən əsrin 70-80-ci illərində Şamaxı arıçılıq sovxozunun may balı (arıçı Mariya Samoylovanın arıxanası) Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində dəfələrlə nümayiş etdirilmiş və medallara layiq görülmüşdür.**

Araşdırmalar göstərir ki, 1960-80-ci illərdə respublikamızda ixtisaslaşdırılmış arıçılıq sovxozlarının təşkili, arıçılığa mütəxəssislər tərəfindən əməli köməklik göstərilməsi xeyli yaxşılaşmışdır. Əvvəlcə mövcud xırda arıçılıq təsərrüfatları kolxoz və sovxozların nəzdində yaradılmış, sonradan isə inkişaf edərək, iri arıçılıq təsərrüfatlarına çevrilmişdir. Arıçılıq sovxozları da özlüyündə müəyyən istiqamətə ixtisaslaşmışdır. Belə ki, Şəki və Qusar arıçılıq sovxozları damazlıq arıyetişdirmə istiqamətində, qalan sovxozlar isə bal istehsalı üzrə ixtisaslaşmışlar.

Azərbaycanın arıçılıq təsərrüfatı 1990-1999-cu illərdə 45 faiz azalmışdır. Bunun bir çox səbəbləri vardır. Arıxanaların əksəriyyəti erməni təcavüzü nəticəsində hərbi əməliyyatların aparıldığı ərazilərdə məhv edilmişdir. İslahatların həyata keçirilməsi ilə əlaqədar sovxoz və kolxozların ləğv edilməsi zamanı 10 arıçılıq sovxozunun və kolxozlara məxsus arıçılıq təsərrüfatlarının hamısı qeyri-peşəkar insanların əlinə keçmişdir. Səriştəsizlik üzündən arı ailələri baxımsız qalmış və tələf olmağa başlamışdır. Həmin dövrdə arıçılığa xidmət göstərən infrastruktur, o cümlədən baytarlıq xidməti də dağıldı. Yenicə fəaliyyətə başlayan arıçılar arı xəstəliklərini diaqnozlaşdıra və müalicə edə bilmirdilər. Arı dərmanlarının davamlı alınması pozulmuşdu.

**(davamı gələn sayımızda)**

**Yusif Hümbətov, Azərbaycan Texnologiya Universiteti, iqtisad üzrə fəlsəfə doktoru, dosent**

İqtisadiyyat.- 2021.- 11-17 noyabr.- S.5.